Ədalət.-2017.-14 aprel.-S.4.



*Allahverdi EMİNOV*

# GECİKMİŞ MƏKTUB

## (İmamverdi Əbilovun xatirəsinə)

**Mən həyatımda ilk dəfə əməliyyat üçün "hazırlandım". Tanınmış cərrah çoxsaylı "analizlər"dən sonra razılıq verdi: burun-qulaq həkim bıçağına məruz qalacaqdı. Hisslərim nədənsə mənə emosional əhval bəxş etmirdi, intellektuallığa çəkirdi, keçmişə aparırdı, xatirələri dünənə gətirirdi. Bunun üçündür ki, insan yaşamaqdan bezikə bilər, amma həyatdan doymaz!**

Mən uşaqlaşmışdım: əməliyyat üçün köklənən həkimlərə ricam bu idi ki, bəlkə müalicəvi bu işi həyata keçirəsiz? Cavab Hippokrat andı idi: Artıq siz əməliyyata hazırsız, müəllim.

Bu "müəllim" ifadəsini eşidəndə içimdə güldüm: cəmiyyətdə müəllimin "günahı" nədir ki, taleyi də narahat buraxmır, etirazına baxılmır, qocalığı gecikmir, cavanlığı uşaqların yaddaşında çox ömür sürmür

Vaxt təyin olundu, aprel təzə həftəsinə başlamışdı.

Artıq ağappaq çarpayılar arasında mənimki də vardı. Mən, ümumiyyətlə, xəstəxanada ağ mələfəsinə bükülən çarpayıları görəndə fikrimə başqa bir bədbin bənzətmə gəlir. Torpaqsız, ancaq dəmir qəbiristanlıq. Kimlər dəfn olunacaq - o, Allahın hökmüdür

Yoluxmağa gələn doğmalarımdan xahişim o idi ki, daimi oxucusu olduğum üç-dörd qəzeti alıb gətirsinlər. Şənbə günü daha çox intizarda oluram: aylarla, illərlə imzam görünməyən "Ədəbiyyat qəzeti" ovqatımı nikbinləşdirir. Qələm adamı kimi məqalələri, hekayələri, şeirləri oxuyub yüngülləşirəm

Bu dəfə isə. Sarsıldım, təxminən (elə fərziyyəsiz də) 50 illik sıx insani və ədəbi ünsiyyətdə olduğum, məktublaşdığım, görüşdüyüm, şirin və kövrək yazılarını oxuduğum, səsi qulağımda əbədiləşən İmamverdi Əbilovun qəzetdən görünən portreti. Qara haşiyəli bu nekroloq məni uzaqlara apardı.

1964-cü ilin Salyanda keçirilən rayon müəllimlərinin ənənəvi avqust konfransında yaxından tanış olduğum İmamverdi Əbilovla ağacın altında skamyada oturub söhbət edirəm. O vaxt Salyan rayon qəzeti "Qələbə" "Həsrətin anası" romanından parçalar çap edirdi. Bu barədə İmamverdi müəllimə məlumat verəndə gülümsündü: - Sən ki, tələbə idin, əsəri haradan oxumusan? İndi artıq bitirmisən Pedaqoji İnstitutu, sevinirəm. Sənin də qəzetdə arabir məqalələrini oxuyuram.

Müdrik pedaqoq, ədəbiyyatşünas İmamverdi Əbilovun xoş sözləri rayonda işlədiyim üç ildə əlaqələrimizi daha da möhkəmlətdi. O, Neftçala şəhərində yaşasa da, müntəzəm olaraq "Azərbaycan" jurnalında, "Ədəbiyyat və incəsənət", "Azərbaycan müəllimi" qəzetlərində ədəbi-tənqidi məqalələrlə çap edilirdi. Rəsul Rza, Süleyman Rüstəm, B.Vahabzadə, Qabil, Adil Babayev, Qulu Xəlilov və b. yaradıcılığı haqqında dolğun fikirlər, məntiqi mühakimələr deyirdi, özü də "İmamverdi Əbilov üslubu"na xas tərzdə, ritorikadan uzaq analitik təfəkkürlə. Bunlarla hələ ötən əsrin 60-70-ci illərindən tanışam. Bəzi məqalələrinə indii də arxivimdə saxladığım qəzet və jurnallarda rastlaşıram. Saralmış vərəqlər çox şeyləri pıçıldayır, xüsusilə, İmamverdi müəllimin yoxluğunda!

Onu bilirəm ki, İmamverdi Əbilov doğulduğu, boya-başa çatdığı rayonundan kənara çıxmaq istəmədi, halbuki, o, Bakıya gəlib öz sahəsi üzrə layiqli vəzifə tutardı. Etmədi, çünki o, öz mahalında, obasında lazım idi, dərs deyirdi, məsləhət verirdi, yarayırdı. Böyük şair Əlişir Nəvainin sözlərini xatırladım: "Əgər alim yüksək vəzifə üçün alçalırsa, bu, onun nadan olmağına dəlalət edir".

Həqiqətdir ki, İmamverdi Əbilov bu yolu seçmədi. Çünki o, müdrik idi, özü də cavan yaşında. Təsadüfi deyildi Səməd Vurğun 1954-cü ildə Neftçalaya gələndə ilk aradığı şəxs heç 30 yaşı olmamış İmamverdi Əbilov olmuşdu. Şairin polifonik poeziyası haqqında məruzəni o, etmişdi. Əlbəttə, o vaxt mən altıncı sinifdə oxuyurdum, mətbuatdan xəbərsizdim. Sonralar neftçalalı müəllim Ölməz Məmmədovun bu tarixi görüş barədə geniş məqaləsini, İmamverdi Əbilovun xatirələrini oxudum.

Neftçala rayonuna Təhsil Nazirliyinin xəttilə (o zaman Neftçala müstəqil rayon deyildi) ezam idim, təbii ki, məktəblə bağlı idi. İlk axtarıb görüşdüyüm İmamverdi müəllimdi, xudmani məclisi o, idarə edirdi. Sonda yenicə nəşr olunmuş qırmızı cildli "Orta məktəbdə siyasi lirikanın tədrisi" kitabını avtoqrafla hədiyyə etdi.

Neftçalaya ikinci səfərim təxminən on ildən sonra idi. Axşamüstü çatmışdım. İmamverdi müəllimi narahat etmək istəmədim. Səhərisi tədris müəssisələrində oldum. Mehmanxanaya qayıdanda həyətdə mərhum yazıçı Vaqif Musa və şair Sabir Məmmədzadə (səhvdə deyiləmsə) skamyada bikef söhbət edirdilər, darıxmışdılar. Məni görcək sevindilər. Bizlər kənarda necə də doğmalaşırıq. Vaqif Musa dedi ki, sənin bir tərəfin buralıdı, bir gəzişək.

Mən hər ikisinin ayağa qalxmasını xahiş etdim, dərhal durdular.

- Heç yer lazım deyil, İmamverdi Əbilovgilə gedəcəyik. Dünəndən onu görməmişəm. Xoşdur onun qonağı olmaq, çox məmnun qalacaq.

Vaqif Musa üzünü mənə tutdu.

- Allahverdi müəllim, ünvanını bilirsən?

Düzü, güldüm ehmalca.

- Birincisi, Neftçala şəhərində uşaqdan da soruşsan İmamverdi müəllimin evini nişan verəcəklər, ikincisi, Puşkin küçəsi, ev 12-də yaşayır, - cavab verdim Və biz qonaqları elə səmimi qarşıladı, hətta kövrəldi ki, bu vaxtı, bu şəhərdə onun mənzilinə ərk edib gəlmişik. Əlavə elədi ki, bu təşəbbüs Allahverdi müəllimin olar!

Süfrə yetərliydi, Salyan dovğasını Musayla Sabir iştahla yedilər

Söhbət ədəbiyyatdan, şəxsi təəssüratlardan gedirdi. İmamverdi müəllim məşhur və nadir xatirələr, təəssüratlar kitabını gətirdi, xoş sözlər yazıldı (sonralar İmamverdi Əbilovun istedadlı oğlu, Cavidşünas Azər Turan "Ədəbiyyat qəzeti"ndə mənim qeydlərimi çap etmişdi).



Mən müdrik şəxsiyyətin canlı çıxışlarının şahidi olmuşam, üzbəüz oturub söhbətlər etmişik. Bu insandan yalnız müsbət enerji alırdın və bunun səbəbi nəydi: sirayətedici iri gözlərindən müsahibinə süzülən işıq, şirin, yumşaq və koloritli danışığı, sərbəst mühakiməsi, dəyərini itirməyən xatirələri. Və bir də bədiiyyatla, söz sənətilə aldığı ciyərdolusu nəfəsi.

Sonuncu ilə bağlı onu deyərdim ki, İmamverdi Əbilovun bağlı olduğu ədəbi şəxsiyyətlər İttifaqda və Dünyada tanınan simalardı: Mehdi Hüseyn, Mirzə İbrahimov, Süleyman Rəhimov, Əli Vəliyev - naisrlər; S.Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Qabil, Osman Sarıvəlli - şairlər və digərləri. Bu nəhənglər İmamverdi Əbilovu təsadüfi, uzaq bir yerdə yaşayıb-yaradan ədəbiyyatçı kimi tanımamışdılar, qonağı olmamışdılar - bu, öz yerində - İmamverdi Əbilovun şəxsi keyfiyyətlərinə, geniş ədəbi savadına, analitik məqalələr müəllifi olduğuna görə də hörmət bəsləyirdilər. Çünki o, davranışında alicənabdı, həmfikirdi, ürəyi və əliaçıqdı, qonaqsevəndi, bir sözlə, müdrikdi, Lev Tolstoy deyirdi: "Müdriklik sonsuzluqdur - nə qədər uzağa getsən, bir o qədər sənə lazım olar". Bəli, İmamverdi müəllim ilk görüşdən belə, həmsöhbətinin ürəyini "oxumağı" bacarırdı, duyurdu, nəyə ehtiyacı olduğunu soruşurdu

İmamverdi müəllimin öz müdrik xarakterindən irəli gələn bir xasiyyəti vardı: ərk etmək, imkanı götür-qoy etmək və o şəxsə inanmaq. Şahidiyəm.

Mən bir müddət Azərbaycan Dövlət Xarici Dillər İnstitutunda "Pedaqogika" fənnindən dərs demişəm. Sən demə, onun bir nəvəsi tələbəm imiş, xəbər tutmamışam. Bir gün İmamverdi müəllimdən məktub aldım, yazmışdı ki (Oxucular məktubda bu insanın xarakterini daha yaxşı təsəvvür edəcəkdir).

Mən "Təfəkkür" Universitetində 1992-1998-ci illərdə dərs demişəm və bir neçə il dekan işləmişəm. Bir gün filologiya fakültəsində seminar məşğələsində boylu-buxunlu, sarışına çalan saçlı tələbəni lövhə qarşısına çağırdım. O, danışığında şirin Muğan ləhcəsinə yad deyildi. Soruşdum, zənnimdə yanılmamışdım. Çünki dekan hər bir tələbə ilə maraqlanmalıdır. O, xəfifcə qımışdı və: - Müəllim, siz mənim babamı tanıyırsız, - dedi.

- Olmaya İmamverdi Əbilovun qohumusan? - Ərkyana dilləndim.

- Bəli, onun nəvəsiyəm.

Auditoriyada müqtədir dostum İmamverdi Əbilovun özü və yaradıcılığı haqqında konkret informasiya verdim. Çox təəssüflənirəm - adını unutmuşam - oğlanla səmimi davrandım, çətinliyə düşməyə imkan verməm. Universiteti bitirəndən sonra Bakıda işə düzəldi, arabir görüşür, öz mərifəti və ehtiramı ilə mənimlə söhbət edirdi. Beş ilə yaxın olar bu nəcib oğlanla, İmamverdi müəllimin nəvəsiylə rastlaşmıram. Amma görmək istərdim.

Deyəsən çox uzaqlara gedib çıxdım, əlli illik tanıdığım işıqlı bir simadan yadımda qalanları oxucularımla bölüşdürdüm - yazı-pozu adamlarının ürəyi dolanda, yaxın tanışını, dostunu itirəndə kövrəlir O, qocalığı qapıdan içəri buraxanda da öz müdrikliyini qorumağı bacarmışdı, ləyaqətini gözləmişdi, dolu və açıq fikirlərini vərəqlərə köçürməkdən usanmamışdı. Bu amillər elə-belə yaranmır insanda, o cümlədən, İmamverdi Əbilovda. Əlbəttə, indi xatirə yazanlar çoxalıbdır, heç beş-on il deyil tanıdığı, yaxud bir stəkan çay içdiyi tanınmış şəxsdən keçmiş Zamanda danışır, ritorik çalarlar qatır, şəxsi niyyətini bürüzə verir. Heç də belə deyil: o insandan ürəklə yaz, həqiqətən, ona layiqsən, söz adamıdırsa son illərdə oxuduğuna yox, on illərlə əvvəlkinə qayıt. Vallah, bu gün insan barədə yazılan xatirələr də saxtalaşıbdır! Ona görə də mən İmamverdi müəllim haqqında xatirələrdən çalışdım uzaq olum, elə şəxsiyyətinə, yaradıcılığına dərin hörmətim varsa - kifayətdir

Amma İmamverdi müəllimin xarakterində uzun illərdən müşahidə etdiyim cizgiləri, görüntüləri, faktları cəsarət göstərib İmam Sadiqin kəlamlarında tapdım. O yazmışdı: "Üç şey Dünya və axirətin xislətlərindəndir: Sənə zülm etmiş kimsəni bağışlamaq, səndən qopmuş şəxsə birləşmə və sənə qarşı cahilyanə hərəkət etdikdə səbirli olmaq".

Mən ustadın ölüm xəbərini dəmir çarpayıda oxudum, xəstə olsa da neçə illər yaşayacağına ümidim kəsilmədiyi bir şəxsiyyətin yoxluğunu təsəvvürə gətirmək necə də ağırdır. Ustad, bu cür səbəbdən: əməliyyatdan çıxandan sonra həkim nəzarətində xeyli həftələr olduğumdan dəfnində iştirak etmədim, eləcə də "üçündə". Səni son mənzilə yola salanlar arasında mən də olmalı idim

Sentyabr ayı mənim üçün iztirablı keçir, əməliyyatdan sonra hələlik irəliləyiş elə də nəzərə çarpmır. Amma İmamverdi müəllim barədə bir neçə ürək sözümü demək borcum məni tərk etmir. Bəs nə köməyimə çatmalı idi, yazmağa təhrik etməliydi? Allahın yazısına bax, mənə ünvanlanan bir xeyli məktubları nəzərimdən keçirirdim. Ədəbiyyat və incəsənət arxivimdə açılan şəxsi fond üçün - Sarı-ağa çalan dördkünc məktubu görəndə gözlərimə inanmadım. İmamverdi Əbilova xas səliqə, mirvari düzümlü xətt və "17 may 1994" tarixli məktub, "Əzizim Allahverdi müəllim, salam!"dan başlayan bir kövrək "nağıl". Və: "Ehtiramla: Sizin İmamverdi müəllim" - Son!

Məqaləmə həmin məktubu əlavə etməyi özümə borc bildim. Bir də axı, elə məktub var bir əsərdir epistolyar janrlı, yəqin ki, cavab məktubum böyük insanın arxivində olmuşdur

Redaksiya yəqin ki, İmamverdi müəllimin işıqlı xatirəsi naminə həmin məktubu da oxuculara təqdim edəcəkdir.

**27.09.2016.**

**17 may 1994**

Əzizim Allahverdi müəllim, salam!

Ağrılı-acılı, dolaşıq-dumanlı dünyamızda Sizə müjdəli ömür arzulayıram. Heyf, çox heyf ömrümün günbatanı Vətən taleyinin düyünlü günlərinə düşdü. Düşmənin sonunu, torpağın azadlığını görmək üçün Allahtaala hamımıza ömür əta eləsin! Dünyadan nigaran köçmək böyük dərddir, əzizim! Ümidim Tanrının mərhəmətindədir.

Nəvəm Güntəkin Dillər İnstitutunda oxuyur. Yola düşərkən, Sizin onlara dərs dediyinizi söylədi. Sevindim. Tələsik də olsa məktub yazmağı özümə borc bildim. Uğurlar diləyirəm. Uşağı Sizə tapşırmağa ehtiyac yoxdur - zənnimcə. Əminəm ki, onu doğmanız hesab edəcəksiniz.

Yeni "Pedaqogika" kitabınız mübarək! Avtoqraf göndərəcəyinizə şübhə etmirəm. Göndərsəniz minnətdar olaram. Səhhətim məni bir çox gərəkli məşğuliyyətdən məhrum edib. Nəcib adamların ömrü uzun olsun! Məni yaşadan fazil adamların qayğı və diqqətidir. Bu həftə Elmlər Akademiyası Rəyasət Heyətinin üzvləri ilə həmyerlilərimin görüşünü keçirirəm. Eldar Salayev yüksək mədəniyyəti nümayiş etdirərək təklifimi qəbul elədi. Əlbəttə, belə sıxıntılı vaxtda onun dəvətimi qəbul edib rayon ziyalıları ilə görüşə gəlməsi nəcabətdir, əsl ziyalılıqdır.

Təxminən bizimlə həmyerli olan Qəzənfər Paşayevi görsəniz salam yetirin. Ona yazdığım məktub beş aydır ki, nəvəm Güntəkindədir.

Elmi konfransda edəcəyim "Ziyalı və zaman" mövzusundakı məruzənin mətnini də indicə tamamlamışam. Sağlıq olsun.

Məktubun cavabsız qalmayacağına əminəm.

Ehtiramla: Sizin İmamverdi müəllim.